# MÖVLANA CƏLALƏDDİN RUMİ

VEYSEL AKKAYA



**Kitabın orijinal adı:**
Mevlana Celaleddin Rumi

**Müəllif:**
Veysel AKKAYA

**Nəşrə Hazırlayan:**
t.f.d Abbas QURBANOV

**Anadolu türkcəsindən**
**Azərbaycan türkcəsinə uyğunlaşdıran:**
Rəşid HƏSƏNOV

**Redaktor:**
Əziz SULTANOV

**Rəssam:**
Murat Tanhu Yılmaz

**Qapaq tərtibatı**
Faruk Güney

**Dizayn:**
Nicat QƏRİBOV

**Bakı-2018; İpəkyolu Nəşriyyatı: 236**
**İSBN: 978-9952-8297-2-3**

Kitabda ifadə olunan mövqe və fikirlər müəllifə aiddir; Türk Əməkdaşlıq və Koordinasiya Agentliyinin (TİKA) və Gəncliyə Yardım Fondunun mövqeyini əks etdirən mətnlər olaraq qiymətləndirilə bilməz.

Bakı Şəhəri Səbail Rayonu
Cəfərov Qardaşları, 16.
**Tel:** (+994 12) 492 72 24
**Mobil:** (+994 50) 302 90 08
**Web sayt:**
www.ipekyolunesriyyati.az
**Elektron poçt:**
ipekyoluneshriyyati@gmail.com

İPƏKYOLU NƏŞRİYYATI

# Mövlana Cəlaləddin Rumi

Veysəl AKKAYA

TİKA

Türk Əməkdaşlıq və Koordinasiya
Agentliyi Bakı Proqram
Koordinatorluğu

Azərbaycan Respublikası
Gəncliyə Yardım Fondu

Bu kitab, Türkiyə Respublikası Baş Nazirlik Türk Əməkdaşlıq və Koordinasiya Agentliyi (TİKA) və Gəncliyə Yardım Fondu əməkdaşlığında 23 aprel Uşaq Bayramı münasibəti ilə həyata keçirilən "***Kitab Tutan Balaca Əllər***" layihəsi çərçivəsində çap olunmuşdur.

## Dos. Dok. **VEYSEL AKKAYA**

1973-cü ildə Kayserinin Yahyalı qəsəbəsində dünyaya göz açdı. 1996-cı ildə Mərmərə Universiteti İlahiyyat fakültəsindən məzun oldu. Hal-hazırda İstanbul Səbahəddin Zaim Universiteti İslami Elmlər fakültəsi Təsəvvüf kafedrasında müəllim olaraq işləyir.

Əsərləri: İdris Fassi, Təqva yolçuluğu Ümrə, Sufi gözü ilə Həcc və Ümrə, Hədis və hədislərin dili ilə ibadət silsiləsi (namaz, oruc, həcc, zəkat), Şeyxi-əkbər İbn Ərəbidə İdris peyğəmbər, Həcci yaşayanlar, Kəbə və insan, Hidayət rəhbəri, Hekayələrlə namaz surələri və duaları, Həccin sirləri, Canım peyğəmbərim, Evliyaullahdan Həcc hekayələri, Aləmlərə rəhmət Hz. Muhammədin (s.ə.s) həyatı, Gənc səhabələr və peyğəmbərimiz, Rəsulullahın dilindən ticarət, Hekayələrlə namaz surələri, Gənc səhabələr, Namazı yaşamaq.

# Mövlana Cəlaləddin Rumi

Müəllimi Zeynəbə mənəvi böyüklərimizdən olan Mövlananın həyatı ilə bağlı tapşırıq vermişdi. Zeynəb Mövlananın adını çox eşitmişdi, ancaq onun həyatı haqqında öyrənməyə macal tapmamışdı. Axşam Zeynəbin atası Əhməd evə gələndə Zeynəb ona dedi:

- Atacan, müəllimim mənə Mövlana ilə bağlı bir tapşırıq verib. Mənə kömək edə bilərsən?

- Əlbəttə, qızım. Böyük məmnuniyyətlə...

- Verilən tapşırığa hazırlaşmadan əvvəl Mövlana ilə bağlı mənə nə deyə bilərsən?

- Qızım, Mövlananın böyük bir şəxs olacağı hələ kiçik yaşda ikən bəlli imiş.

- Necə yəni?

- Şəxsən həyatı ilə bağlı oxuduqda çox təsirlən-

diyim bir hadisədir bu... Bir cümə günü idi. Balaca Mövlana dostlarıyla birgə evin damında oynayırdı. Uşaqlardan biri o birisinə oyun oynamaq üçün belə dedi:

- Gəl bu damdan o biri dama tullanaq.

"Tullana bilərsən, tullana bilməzsən" kimi mübahisələrə dalarkən mərcə girdilər. Balaca Mövlana belə bir mərcin yersiz olduğunu hesab etdi və dostlarına gülümsəyərək dedi:





- Belə bir şeyi it, pişik də edər. Allahın digər canlılardan üstün məxluqu olan insana belə şeylərlə başını qarışdırması heç yaraşarmı?... Həm də axı belə bir oyun bizim üçün çox təhlükəlidir. Əgər gücünüz çatırsa, onda gəlin göylərə uçaq...

Bu təklif qarşısında yoldaşları təəccübləndilər. Mövlanaya cavab verə bilmədilər.

- Ata, Mövlana balaca olmağına baxmayaraq böyüklərə yaraşan bir söz demişdir.

- Bəzi rəvayətlərdə həmin sözü deyəndə Mövlananın göyə qalxdığı da deyilir. Nə isə... Bala, böyük insanların balacalığı da başqa cür olur. İnsanın hədəfləri böyük olmalıdır. Azyaşlı ikən böyük hədəfləri olanlar gələcəkdə öndər insanlar olurlar. Mövlana bunun ən yaxşı nümunəsidir.





- Ata, Mövlana harada anadan olub?

- İndiki Əfqanıstanın Bəlx şəhərində anadan olmuşdur. Ancaq orada çox yaşamadı. Həyatının əsas hissəsini Konyada keçirdi. Mövlana tanınmış bir ailənin uşağı idi. Atası Muhəmməd Bəhaəddin Vələd "Sultanul-uləma", yəni alimlərin sultanı olaraq tanınmışdı. Kübrəvi təriqəti şeyxlərindəndir. Anası Bəlx əmiri Rüknəddinin qızı Mömin Xatundur. Ata tərəfindən soyu Hz. Əbu Bəkrə (r.a), ana tərəfindən isə Hz. Hüseynə (r.a) gedib çıxır. Mövlana belə bir ailənin uşağı olaraq 1207-ci il sentyabr ayının





30-da dünyaya göz açmışdır. Əsil adı Muhəmməd, ləqəbi isə Cəlaləddindir. O, hələ beş yaşında ikən Qurani-Kərim oxumağa başladı. Vaxtının çox hissəsini ən çox sevdiyi Qurani-Kərimi oxumaqla keçirərdi. Balaca Mövlana həmin il ailəsi ilə birgə Bəlx şəhərini tərk etmək məcburiyyətində qaldı.

Həmin ərəfədə dərsinə hazırlaşan Həsən əslində bacısı Zeynəb ilə atasını eşidirdi. Maraqla söhbətə qarışdı:



- Nə üçün? Nə olmuşdu ki?

- Mövlananın atası onu istəməyən həsədçilərin davranışlarına çox heyfisləndi. Axırda şəhərdən köçmək qərarına gəldi. Beləcə, Mövlananın ailəsi ilə birgə uzun illər davam edəcək səfəri başladı. Əvvəlcə Nişapura getdilər, orada Şeyx Fəriduddin Əttar adında bir övliya ilə tanış oldular. Həmin vaxtlarda Mövlanaya yuxusunda nur üzlü bir şəxs altı budaqlı gül fidanını hədiyyə verir. Yuxudan oyandıqdan sonra Mövlana yuxusunu atasına danışır. Atası da "altı budaqlı gül" sənin altı cildlik bir kitab yazacağına işarədir" şəklində oğlunun yuxusunu yozur. Onun yuxusundan xəbəri olan Əttar həzrətləri isə: "Altı budaqlı gülə qovuşana qədər bu kitab ilə



məşğul olarsan”, - deyərək, “Məntiqut-tayr”, yəni “Quş dili”adındakı özünün məşhur əsərini Mövlanaya hədiyyə edir.

- Ata, bu əsərin tərcüməsi varmı?

- Əlbətdə Özü də bir neçə çapı var.

- Atacan, mənim başa düşəcəyim səviyyədə olan bir tərcüməsini ala bilərsənmi? Axı mən də onu oxumaq istəyirəm.

- İnşallah, qızım. Şeyx Əttarın digər əsəri olan “Əsrarnamə”ni hədiyyə etdiyi və atasına: “Çox keçməmiş, inşallah, bu oğlun dünyada ürək yanğısı olan şəxslərin qəlbinə od salacaqdır”, - dediyi də kitablarda qeyd olunur. Daha sonra isə məşhur Bağdad şəhərinə gəlirlər. Oradakı ruhanilərlə görü-





şüb tanış olurlar. Sonra isə Kufəyə, ordan da həccə gedirlər.

Həsən soruşdu:

- Mövlana hələ kiçik yaşda ikən Kəbəni ziyarət edib, həcc etmişdi. Görəsən, həcc ziyarəti bizə nə vaxt qismət olacaq?

- Gəlin birlikdə Allaha dua edək. İnşallah, ən qısa vaxtda Rəbbimiz bunu bizə nəsib edər. Mövlana və ailəsi həcdən sonra Suriyanın Dəməşq bölgəsinə gedirlər. Mövlana həmin vaxtı təxminən 9-10 yaşlarında idi. Dəməşq şəhərində də ruhanilərlə də tanış olurlar. Bunlardan biri məşhur övliya, yüzlərlə əsərin müəllifi və ən böyük şeyx kimi tanınan Muhyiddin ibn-Ərəbidir. Mövlana arxada, atası isə öndə İbn-Ərəbini ziyarət etdiklərində, o, belə deyir:



-Sübhanəllah! Bir okean bir dənizin ardınca gedir.

-Ata, o bununla nə demək istəmişdi?



- Yəni, Mövlananın atası dövrünün ən böyük alimlərindən olmasına baxmayaraq, elmlərdə bir okean kimi olan Mövlanaya nisbətən dəniz kimidir. Həsən deyir:

- Çox qəribədir. Mövlana hələ on yaşında ikən bu böyük Allah dostu onun üstünlüyünü kəşf etmişdi.

- Bəli, eynilə belədir. Görüşdən sonra Muhyiddini-Ərəbi Mövlananın atasına belə deyir:

- Bu uşaq, inşallah, gələcəkdə böyük bir şəxs olacaq... Hz. Davudun (s.ə.s) izlərini daşıyacaq.



-Ata! Mövlana Dəməşqdə yaşadımı?

- Xeyr, qızım. Orada qısa müddət qaldıqdan sonra Malatyaya getdilər. Oradan Ərzincana, sonra isə Karamana çatdılar. Konya bölgəsinin ərazisində olan Karamanda bir müddət qaldılar. Axırda Konyaya köçdülər və orada yaşadılar. Konya şəhəri Səlcuqluların paytaxtı idi. Dövrün sultanı Ələddin Keyqubad Mövlananın atası Şeyx Bəhaəddin Vələd üçün böyük bir məclis təşkil etdi və yaxınları ilə birgə onun mənəvi tərbiyəsinə daxil oldu. Ona heyran qalan sultan aşağıdakı sözləri deməkdən özünü saxlaya bilməmişdi: “Bu dünya məndən qorxub çəkinərkən mən bu şəxsdən çəkinirəm. Ya Rəbb, bu




necə bir haldır?! Artıq inandım ki, Şeyx Bəhaəddin Vələd bu kainatda nadir olan bir Allah dostudur". Mövlana atasının mədrəsəsində yetişdi. Dini emlərdə çox inkişaf etdi və kamil bir elmə yiyələndi. Atası həmçinin onun ilk şeyxidir. Mövlanaya qəlb/nəfs tərbiyəsini də ən yaxşı şəkildə aşılamış, mənəvi yöndən də onu yetişdirmişdir. Beləcə, Mövlana sanki iki qanadlı quş kimi olmuşdur. Zəmanəmizdə qəlb/nəfs tərbiyəsi necə də azdır! Halbuki Allah-Təala bizdən tərtəmiz bir qəlb tələb edir.

- Ata, bəs bunu necə eləmək olur?

- Bir Allah dostunun tərbiyəsi ilə... Belə ki, onu sevməli və biz də Onun kimi İslam dinini gözəl bir şəkildə yaşamağa çalışmalıyıq. Onun kimi Allahı çox


16

zikr etməliyik. Söhbətlərində iştirak edib, verdiyi nəsihətlərdən özümüzə ibrətlər çıxarmalıyıq. Beləliklə də, həyatımızı onun göstərdiyi şəkildə nizamlamalıyıq. Məhz elə həmin vaxt mənəvi tərbiyəyə addımımızı atmağa başlamış olarıq... Gələk Mövlanaya. O, həmçinin ibadətlərinə əhəmiyyət verər, qətiyyən səhlənkarlıq etməzdi. Peyğəmbərimizin davamçısı olmağa səy göstərərdi. On səkkiz yaşına gəldikdə atasının tövsiyəsinə əsasən Səmərqəndli Xoca Şərafəddin Lalanın gözəl əxlaqlı qızı olan Gövhər Xatunla ailə həyatı qurdu. Mövlananın iyirmi dörd yaşı olanda atası vəfat etdi. Atası Mövlananın öz yerinə təyin olunmasını vəsiyyət etdi. Dostlarının və xalqın təkidləri nəticəsində Mövlana atasının vəsiyyətinə riayət edərək onun yerinə keçdi və mədrəsənin əsas müəllimi oldu.

Bir neçə il sonra atasının seçilmiş tələbələrindən olan Şeyx Bürhanəddin Konyaya təşrif etdi. Seyyid Bürhanəddin elə bir şəxs idi ki, insanların qəlblərindəki sirlərini bilirdi. Onlara daxilən nə keçirdiklərini deyər və səhv hərəkət edənləri düzgün davranış nümayiş etdirməyə dəvət edərdi. Bu səbəbdən ona "Seyyid Sırdan", yəni sirləri bilən şəxs deyilirdi. Mövlana ilə söhbətlərindən sonra onun elmdəki dərinliyini təqdir etdi, ancaq ona belə xəbərdarlıq etdi:

“Elmdə seçilmiş birisən, lakin atan bununla yanaşı həm də hal sahibi idi. Elm ilə əməli birləşdirmişdi. Sən də elə et. Sözdən əmələ keç. Belə olsan, onda dünyaya işıq saçan günəşə bənzəyərsən. Sən atanın elminə, mən isə halına varisəm. Hala vaqif olmağı da mənə tabe olaraq əldə et”. Mövlana Şeyx Bürhanəddinə heyran qaldı və onun mənəvi tələbəsi, yəni müridi oldu.

Şeyx Bürhanəddin bu məsləhətləri ilə Mövlanaya daha böyük hədəflər göstərmişdi. Çünki gözlə oxuyaraq əldə edilən elmdən başqa həm də qəlb ilə əldə edilən bir elm var ki, həmin elmə sahib olmaq hər şeydən üstündür. O elmə “lədünni elm” deyilir. Allah-Təala və Onun vəzifələndirdiyi xüsusi şəxslər tərəfindən öyrədilir. Bürhanəddin Mövlananı belə tərbiyə etdi. Onu həmçinin elmini artırmaq üçün Dəməşq və Hələb şəhərlərinə göndərdi. Mövlana yeddi il elmlə məşğul oldu. Konyaya qayıtdıqdan sonra Bürhanəddin öz təriqəti olan Kübrəvi təriqəti istiqamətində Mövlananı iki il və ya doqquz il mənəvi tərbiyədən keçirdi. Onun tam olaraq mənəvi yöndən hazır olduğuna əmin olduqdan sonra özü Kayseriyə getdi və bir ildən sonra orada vəfat etdi. Türbəsi ziyarət yeridir. Mövlana Seyyid Bürhanəddindən sonra şeyx oldu. Dini elmləri öyrətdiyi 400

tələbəsi var idi. Mənəvi tərbiyəsi ilə məşğul olduğu müridlərinin də 10000-dən çox olduğu bildirilir.

- Həsən atasından soruşdu:

- Yaxşı, atacan. Mövlananın həyatı elə bundan ibarətdir?

- Xeyr! Mövlana dövrünün dahisi idi. Ancaq onun əsil kamilliyi bundan sonra ortaya çıxır. Mövlana ilahi eşqə məruz qalacaqdı. Dörd il tələbə yetişdirməklə məşğul olan Mövlananın yaşayışını inanılmaz şəkildə dəyişdirən bir hadisə olacaqdı.

- Nə hadisə baş verdi?

- Başa düşülməsi bir az çətindir, amma başa salmağa çalışacağam. Mövlana deyir: “Əgər bir otaqda 40 şam olsa və bu şamlardan yalnız biri yansa, onda işıq ancaq yanan şamdan gələr. Yerdə qalan şamlar ətrafa işıq saçmaz. Bunun üçün bütün şamlara yanan şamdan bir qığılcım lazım gələr”. Sözün əsil mənasında Mövlananın qəlb şamı belə yanmış və ətrafı işıqlandırmışdır.

Zeynəb sual verdi:

- Görəsən Mövlananı hansı qəlb şamı yandırmışdır?

- Çox qəribədir, adı Şəms, yəni “Günəş” olan bir

nəfər. Günəş deyildikdə insanın ağlına dərhal istilik və işıq gəlir. Şəms İranın Təbriz şəhərində yaşayan bir Allah aşiqi idi. Uzun illər diyar-diyar gəzmiş, ancaq Allah eşqini bölüşəcəyi özü kimi olan bir kimsə tapa bilməmişdi. Bir gecə Uca Allaha nida etmişdi:

- “Ey Allahım! Bu dünyada gizlətdiyin sevgili bəndələrindən birini mənə göstərməyini istəyirəm. Mənimlə dost olacaq bir sevgili bəndən yoxdurmu? Onu mənə lütf et!”

Yuxusunda ona Konyaya getməsi və həmin yerdə Mövlananı tapması bildirildi. Bunun nəticəsində o, Konyaya getdi. 1244-cü il idi. Şəms həmin vaxt 60 yaşında idi. Mövlananın isə otuz səkkiz yaşı vardı. Şəms Şəkərçilər karvansarasında qalırdı. Bir



gün qapı ağzında oturmuşdu. Mövlana tələbələri ilə həmin yerdən keçirdi. Elə o anda tamam başqa bir mənəvi gözəlliyə sahib olan Şəms Mövlananın diqqətini cəlb etdi. Şəms də axtardığı şəxsi tapmış-



dı, qalxıb Mövlananın atının yəhərindən yapışdı. Ondan adını soruşdu, sonra da bəzi suallar verdi. Aldığı cavablara o qədər heyran qaldı ki: "Allah!" - deyərək elə oradaca özündən getdi. Mövlana tez atından düşərək Şəmsi qucağına aldı və onu özünə gətirməyə çalışdı. Bu nur üzlü şəxsi hörmətlə evinə apardı. Tanış olduqda Mövlana onun müəllimi Bürhanəddinin ona müjdələdiyi dost olduğunu başa düşdü. Həmin andan etibarən Mövlana ilə Şəmsin arasında dünyada bənzəri olmayan bir dostluq başladı. Mövlana Şəmsin söhbətlərini böyük bir zövqlə dinlədi. Hətta özünün mədrəsədəki dərslərini belə təxirə saldı. Qəlb elmlərinin sahibindən bu elmləri almağa başladı. Şəmsin qəlbində yanan Allah eşqi ilə Mövlananın qəlbi də alışdı.



Həsən sual verdi:

- Bu nə cür bir yanğındır?

- Oğlum, bu mənəvi bir yanğındır. Deyilənə görə, qəlbdə eşq başlayanda onun şirin bir yanğını olur. O, zövq verən və təsir edən bir yanğıdır. Sanki günəşin bir meyvəni inkişaf etdirmək üçün ona verdiyi istiliyi kimi. Yəqin ki, ilahi Günəş də qəlbləri isindirib, kamilləşdirir. Mövlanaya sual vermişlər: "Eşq nədir?" O da bunun müqabilində belə cavab vermişdir: "Mənim kimi ol, sonra bil". Mənəvi halların başa düşülməsi çox çətindir. Mənəvi halı

insanın yaşadıqca anladığını deyirlər. Məhz Mövlana çox zövq verən mənəvi yanğı ilə yanmağa başladı. Özü öz həyatını belə xülasə edir: "Xam idim, bişdim, yandım". Yəni, insan əvvəlcə özünün xam olduğunu qəbul etməli və özünün yaxşı bir insan olması üçün mənəvi tərbiyəyə ehtiyacı olduğunu bilməlidir. Həmin andan etibarən Allah dostlarının tərbiyəsinə daxil olmalıdır. Beləcə, orada bişər, yəni mənəvi tərbiyədən keçər, Allah sevgisini yaşamağa başlayar və kamilləşər.

Zeynəb soruşdu:

- Yaxşı, ata, bəs Mövlana ilə Şəms arasında olan qəribə hadisələrdən bir az bəhs edə bilərsənmi?



- Bir gün Mövlana mədrəsənin həyətində olan bir hovuzun kənarında idi. Şəms onun yanına yaxınlaşaraq Mövlanadan kitabları barədə soruşdu. O da kitabları haqqında dayanmadan danışdı. Mövlana hovuzun yanından kənara çəkildikdən sonra Şəms kitabları hovuza atdı. Bir dəyənək ilə də suyun dibinə batırdı. Mövlana qayıdıb kitablarını suda gördükdə çox heyfsiləndi və dedi: "Ah kitablarım, atamın tapılmayan yazıları da getdi!". Şəms Mövlananın bu halını görən kimi əlini suya saldı. Kitabları sanki heç islanmamış bir halda çıxardı. Buna təəccüb edən Mövlana dedi:

- Bu necə ola bilər?

Şəms belə izahat verdi:

- Biz onları əslində sənin qəlbinə köçürmüşük...

Zeynəb dərhal sual verdi:

- Hovuza atılan kitablarla qəlbin nə əlaqəsi ola bilər?

Atası cavab verdi:

- Bunu mən sənə kompyüter üçün istifadə etdiyimiz əlavə yaddaş kartları ilə izah edə bilərəm. Minlərlə kitabı bir neçə dəqiqədə kompyüterə yükləyə bilirik. Elə bil, bunun kimi, Allahın xüsusi bir elm öyrətdiyi bəndələri Rəbbimizin icazəsi ilə qəlbimizə minlərlə kitab dolusu məlumat yükləyə bilər-





lər. Amma bunlar xüsusi hallardır. Layiq olmayana verməzlər.

- Ata, həqiqətən də, heyrətamizdir!

- Bəli! Hər hansısa bir şeyə yenilməz qüdrət sahibi olan Allahın "Ol!" buyurması kifayətdir... Allahın icazəsi ilə Onun sevimli bəndələrində belə şeylər reallaşa bilər. Mövlana Şəms ilə mənəvi söhbətlər etdi. Ancaq ətrafındakı paxıl insanlar ucbatından Şəms Konyadan Dəməşqə getdi. Mövlana Şəmsin yanına oğlu ilə birgə bir qrup göndərərək Onu Konyaya dəvət etdi. Şəms yenidən Konyaya qayıtdı. Təzədən





əvvəlki günlərdəki söhbət başladı, amma yenə də dedi-qodular ucbatından belə söhbətlər uzun çəkmədi. Axırda Şəms gizlincə Konyadan birdəfəlik köçdü. Mövlana belə böyük bir şəxsin Konyadan köçməsinə heyfisləndi. Onun haqqında gedib-gələnlərdən xəbər aldı. Lakin Şəmsin izinə belə rastlanılmadı. Axırda Mövlana özü Dəməşq şəhərinə getsə də, orada da çox hörmət etdiyi dostunu tapa bilmədi. Çarəsiz halda Konyaya qayıtdı və Mövlana ömrünün sonuna qədər Şəmsin həsrətini çəkdi.

Həsən sual verdi:



- Mövlana ilə bağlı keçirilən tədbirlərdə əbaları ilə fırlanan insanlar görürəm. Bunun Mövlana ilə nə



əlaqəsi var?

- Bizim gördüklərimiz məsələnin səhnə tərəfidir. Əslində, Mövlananın ilk fırlanmağı belə olmamışdı.

- Ata, bu necə olub?

- Onun Şəmsdən sonra ən çox hörmət etdiyi dostu Səlahəddin adında biri idi. Səlahəddin Mövlana ilə birgə mənəvi tərbiyədən keçmişdi. O, çox yaxşı bir insan idi. Səlahəddin də Allah eşqi ilə dolu idi. Peşəsi isə Zərgərlər bazarında zərgərlik etmək idi. Halal pul qazanır, qazandığı pulu da Allah yolunda xərcləyirdi. Səlahəddin işi ilə məşğul olarkən belə daim Allahı zikr edirdi. Tələbələri də belə edirdilər. Qızıl zinətləri hazırlayarkən qızıllarını "Allah, Allah" deyə işləyərmiş. Bir gün qəlbi eşq atəşi ilə yanan Mövlananın yolu zərgərlər bazarından keçir. Səlahəddin və tələbələri dükanda həmişəki kimi qızılları döyəcləyirdilər. Mövlana Səlahəddinin dükanının qabağına gəlincə içəridəkilərin zərbələrindən



çıxan döymə səsinin ahəngi onu çox təsirləndirdi. Daxilindəki ilahi eşq coşmuş və Mövlana bihuş olaraq fırlanmağa (məhz buna "səma" deyilir) başlamışdı. Mövlana sağ əlini göy üzünə qaldırmış, sol əlini isə yer üzünə döndərmişdir.

- Niyə belə edib?

- Sağ əli ilə Allahdan aldığı feyzi sol əli ilə bütün dünyaya saçır. "Biz nə alsaq Allahdan alır, insanlara onu paylayarıq" fikrini bildirmək üçün. Çəkic zərbələrinin ritmi ilə fırlandığını görən Səlahəddin tələbələrinə işlərini davam etmələrini demişdi, özü isə həyətə çıxıb Mövlananın ayaqlarına qapanmışdı. Məhz bu hadisə sonralar Mövlananın təriqəti olan Mövləviliyin ayini olmuşdur. Mövləvi səması indi də bütün dünyada heyranlıqla izlənir.

- Ata, mən də səmanı öyrənmək istəyirəm.

- Səma etmək, həqiqi mənada çox xüsusi bir haldır. Mövləvi ayini əsnasında şeyx səma edəcək şəxsin qəlbində zikr əsnasında mənəvi bir eşq, bihuş olma halı hiss edərsə, ona icazə verər, o da

bunu edər. Əsli budur. Belə olarsa yaxşıdır. Onun üçün də sən yaxşı bir şəkildə böyüməli və kamilləşməlisən. Folklor olaraq edilən səma həqiqi səmanın yalnız bir təqlididir.

- Başa düşdüm. Əgər mən etsəm, əslini etmək istəyirəm.

- İnşallah, balam!



Əhməd qızı Zeynəbə tərəf dönərək soruşdu:



- Bəs yaxşı qızım, sənin Mövlana ilə bağlı bildiyin bir əhvalat varmı?

- Bir dəqiqə... Müəllimimiz demişdi. Mövlana uşaqlarla uşaq kimi rəftar edər və uşaqları da çox istəyərdi. Uşaqlar bir gün məhlələrindən keçən Mövlananı zarafatyana dövrəyə alaraq: "Artıq bizim əsirimiz oldun, çıxış yolun yoxdur", - deyirlər. Mövlana gülümsəyərək təslim olduğunu bildirmək üçün əllərini yuxarı qaldırır, uşaqların əyləncəsinə qoşularaq: "Vay! Mən əsir oldum", - deyir. Özünü heyfsilənmiş kimi göstərərək deyir: "Bəs yaxşı, uşaqlar! Mən xilas olmaq üçün nə edim?" Uşaqlar da ciddi şəkildə deyirlər: "Əgər fidyə versən, sən sərbəstsən, yoxsa əsirimiz olacaqsan!" Hz. Mövlana ciblərini yoxlayır, cibindəki qozları çıxarıb deyir: "Əgər bunları versəm, xilas olaram?" Uşaqların da məqsədi elə hədiyyə idi. Mövlananın əlindəki qozları götürürlər və çıxıb gedirlər. Mövlana onların bu hərəkətindən Peyğəmbərimizin hədisini xatırlayır və təbəssüm edərək deyir: "Sanki Yusif peyğəmbər kimi ucuz qiymətə satıldım".

- Çox gözəl bir hadisədir. Bəli, Yusif peyğəmbər



də gözəlliyinə baxmayaraq, paxıl olan qardaşları tərəfindən çox ucuz qiymətə kölə kimi satılmışdı. Amma Allah onu Misirdə xeyli miqdar pul qarşılığında Misir Əzizinə aldırtdı. O da Yusifi oğulluğa götürdü. Axırda Yusif Misirin sultanı oldu. Mövlana da bunu ifadə edirdi. O da könüllərin sultanı oldu. Qızım, bilirsən, Mövlananın yaşadığı hadisənin bənzəri əslində Peyğəmbərimizin də başına gəlib. Bu o deməkdir ki, Mövlana Peyğəmbərimizə (s.ə.s) o qədər aşiq idi ki, başına oxşar hadisələr gəlmiş-





dir. Mən də sənə Mövlananın bir heyvan balası ilə bağlı olan hekayəsini danışım. Mövlana mədrəsədə müəllimlik edərkən birdən qorxu içərisində otağa bir inək daxil olur. Tələbələr tez kənara çəkilirlər. İnək birbaşa Mövlananın qarşısına gedib diz çökür və başını onun dizlərinə qoyur. Mövlana inəyin başını sığallayaraq onu sakitləşdirir. Gördükləri hadisə qarşısında çaşbaş qalan tələbələri müəllimlərindən nə baş verdiyin soruşurlar. Mövlana belə deyir: "İnəyin yiyəsi inəyi kəsmək istədikdə qaçaraq bizə sığındı". Çox keçmədi ki, mədərəsəyə əlləri bıçaqlı halda heyvanın yiyələri gəldilər. Mövlanadan üzr istəyərək inəyi istədilər. Mövlana onlara belə dedi: "Kəsib nə edəcəksiniz?" İnəyin yiyələri: "Ətini satıb pul qazanacağıq", - deyə cavab verdilər. Mövlana onların nə qədər qazanacaqlarını soruşaraq: "Əgər mən həmin miqdarı ödəsəm, inəyi mənə verərsinizmi?" – dedi. Onlar təklifi qəbul etdilər. İnəyin pulunu ödəyən Mövlana onu sərbəst buraxdı. Heç kimin





də inəyə toxunmaması üçün onun azad olduğunu elan etdi. Deyilənə görə inək ölənə kimi Konya ovalığında sərbəst şəkildə otladı. Buna oxşar bir hadisə Peyğəmbər salləllahu əleyhi və səlləmin vaxtında da bir dəvə ilə bağlı olmuşdu. Kəsilmək istənən bir dəvə Peyğəmbərimizə (s.ə.s) sığınmışdı. Rəsuli-Əkrəm (s.ə.s) də dəvənin pulunu yiyələrinə ödəyərək ölənə qədər onu sərbəst buraxmışdı.

Həsən söhbətə müdaxilə etdi:

- Ata, Mövlananın heyvan sevgisi indiki insanların belə çata bilməyəcəyi qədər üstündür.



- Bəli, səmimi müsəlman özünə sığınan məsum şəxsləri, hətta bir heyvanı belə qorumalıdır. Mövlananın gözəllikləri danışmaqla qurtarmaz. Amma onun dünyaca məşhur əsəri "Məsnəvi"dən də bəhs etməsək olmaz. Təsəvvür edin ki, təxminən 26000 beyt şeirdən ibarətdir. Üstəlik bütün şeirləri təkcə bu qədər deyildir. Bütün şeirləri təxminən 60000 beytdir. Şeir demək eşq tələb edir. Allah dostlarının şeiri şair kimi tanıdığımız şəxslərin şeirlərindən çox fərqlidir. Onlar qəlb dünyalarındakı kamillik və mənəvi elmlərini şeirlə ifadə edirlər. Onların şeirləri həqiqətlərin güzgüsü kimidir. Başqa şairlər isə sadəcə olaraq hislərini və düşüncələrini əks etdirirlər.

Mövlana çox hörmət etdiyi Şəmsin Konyanı tərk

edib getməsindən sonra onun həsrəti ilə yanmağa başladı. Mövlananın özünü Allaha nəzir etmiş Hüsaməddin adında seçkin bir müridi vardı. Təxminən 1260-cı il idi. Bir gün Hüsaməddin müəllimi Mövlanadan hikmətli sözlərini yazmasını xahiş etmişdi. Mövlana da sarığından bir kağız çıxararaq 18 beytlik şeirini oxumuşdu. Bunu çox bəyənən Hüsaməddin bir şeir kitabı yazmasını istədikdə Mövlana dedi: ”Mən deyim, sən yaz!” Həmin gündən etibarən Mövlana Şəms həzrətlərinə hiss etdiyi həsrəti, uzun illər şeir şəklində demiş və Hüsaməddin də yazmışdır. Bəzən yatsı namazını qılar, ardından da Mövlana şeir deməyə başlayarmış və səhərə kimi davam edərmiş. Bunun adi şairliklə eyni olması qeyri-mümkündür. Şübhəsiz ki, Allahın sevimli bəndəsinə verdiyi xüsusi bir güclə baş vermişdir. Təbii ki, Mövlana bu sözləri kiçikliyindən bəri çox sevdiyi və tam olaraq bağlı olduğu Qurani-Kərimdən ilham alaraq deyirdi. Çünki Mövlana belə deyir: ”Mən Qurani-Kərimin köləsiyəm, Muhəmməd Mustafa əleyhissəlamın ayağının tozuyam”. Nəhayət, “Məsnəvi” adındakı 6 cildlik bu möhtəşəm əsər ərsəyə gəlmişdir. Əsər əvvəldən axıra kimi ibrətli əhvalatlarla doludur.

- Ata, “Məsnəvi” nə üçün məşhur oldu?

- Mövlana fikirlərini hekayələrlə bildirdiyi üçün çox bəyənildi. Əsrlər boyunca insanlar "Məsnəvi"-dən faydalandılar. "Məsnəvi" bir neçə dilə tərcümə edildi. Beləcə, dünyanın hər yerində Mövlananın sözlərini oxuyanlar ondakı ilahi eşqə heyran qaldılar.

Əhməd, qızı Zeynəb və Həsən söhbətə dalmışdılar. Həmin anda otağa Əhmədin həyat yoldaşı Xədicə xanım daxil oldu. Həsən anasına sual verdi:

- Ana, biz Mövlana barəsində danışırıq. Sənin onunla bağlı bizə danışa biləcəyin bir xatirə varmı?



- Əlbəttə ki... Elə şey olar? Mən sizə Mövlana ilə bağlı çox gözəl xatirələr danışa bilərəm.

Zeynəb səbirsizliklə dedi:



- Onda, sən danış, biz də qulaq asaq!

-Həzrət Mövlananın xanım müridlərindən biri Səlcuqlu Sultanının qızı Gürcü Xatun idi. Gürcü Xatun Konyadan köçməli idi. Mövlana üçün çox darıxacağına görə Onun şəklini yanında aparmaq istədi. Sarayın məşhur rəssamı Eynüddövləyə Mövlananın şəklini çəkməsi üçün göstəriş verdi. Rəssam Mövlananın hüzuruna çıxıb Gürcü Xatunun istəyini bildirdi. Əslində şəklini heç çəkdirməyən Mövlana bu istəyi rədd etmək əvəzinə gülümsəyərək dedi: ”Sənə əmr ediləni istədiyin kimi et, əgər edə bilərsənsə”. Rəssam Mövlananın şəklini çəkməyə başladı. Qurtardıqda bir Mövlanaya baxdı, bir də şək-





lə və gördü ki, Mövlana ilə şəkil arasında heç bir oxşarlıq yoxdur. Məşhur bir rəssam olaraq bundan çox təsirləndi. Gürcü Xatuna "Mövlananın şəkli budur" deyib aparsa, heç də yaxşı olmayacaq. Təzədən Mövlananın şəklini çəkməyə başladı. Şəkli çox diqqətli bir şəkildə çəkirdi. Amma yenə də həminki kimi oldu. İkinci şəkil də Mövlanadan çox fərqli idi.

Həsən dedi:

- Ana, bu necə ola bilər? Bir insan qısa müddətdə necə dəyişər?





- Balam, o, Mövlanadır. Böyük Allah dostları fərqli şəkildə görünə bilərlər. Onlar daim fərqli hala girirlər. Ancaq bunun kiminsə fərqinə varmasını istəməzlər. Mövlana isə bu işə könüldən razı olmadığı üçün öz halını göstərmişdir. Bəli, rəssam bu minvalla düz iyirmi səhifədən istifadə etdi. Lakin yenə də eyni şey təkrarlandı. Çəkdiyi heç bir şəkil də bir-birinə oxşamırdı. Nəhayət, buna gücü-



nün çatmayacağının fərqinə vardı. Bu işdən imtina edərək qarşısındakı böyük insandan üzr istədi. Məşhur bir rəssam ikən öz çizgilərində itən Eynüddövlə belə  demək məcburiyyətində qaldı: ”Əgər bir dinin övliyası, yəni Allah dostu belə olarsa, nəbisi, yəni peyğəmbəri kim bilir necə üstün bir insandır!...”

Əhməd:

- Mövlana necə demişdi? Mən seçilmiş olan Muhəmməd Mustafanın (s.ə.s) ayağının tozuyam. Bundan Peyğəmbərimiz səllallahu əleyhi və səlləmin böyüklüyünü başa düşməliyik.



Xədicə xanım:

- Mən bir də Mövlananın qızı olan Məlikə Xatunun yaşadığı xatirəni deyim. Mövlana bir gün Məlikə Xatunun evinə gedir. Həmin vaxtı Məlikə Xatun qulluqçusunu, çox güman ki, etdiyi bir səhvə görə çox sərt rəftar edib danlayır. Atası qızına belə nəsihət edir: ”Nə üçün onu incidirsən? Görəsən, o xanım, sən də cariyə olsaydın nə edərdin? İstəyərdinmi ki, “bütün dünyada Allahdan başqa heç kimin köləsi yoxdur” deyə fətva verim. Əslində, qulluqçuların hamısı bizim dində qardaş və bacılarımızdır”.

Zeynəb:

- Mövlananın həm də oğlu var. Elə deyilmi?

- Bəli! Adı da Sultan Vələddir. Mövlananın ona dediyi çox gözəl nəsihətlər var. Bu nəsihətlər bizim üçün də olduqca mühümdür. Həzrət Mövlana oğlu Sultan Vələdə belə nəsihət edərdi:

Oğlum! Əgər həmişə cənnətdə olmaq istəsən, hamı ilə dost ol, qəlbində heç kimə qarşı kin bəsləmə!

Artıq heç nə istəmə və heç kimdən də üstün olma!

Məlhəm və şam kimi ol, iynə kimi olma!

Əgər kimdənsə özünə qarşı pislik gəlməsini istəmirsənsə:

Pis danışan,

Pisliyi öyrədən,

Pis düşüncəli olma!

Çünki bir şəxsi dostluqla xatırlasan,

Həmişə sevinc içərisində olarsan,

Məhz həmin sevinc cənnətin elə özüdür.

Əgər kimisə düşmən kimi xatırlasan,

Həmişə dərdli olarsan

Bu qəm də cəhənnəmin elə özüdür...

Mövlana həzrətləri bir çox rahibin müsəlman ol

- Necə? Bununla bağlı bir əhvalat danışa bilərsən?

- İstanbulda (o vaxtlar adı Konstantinopol idi) çox elmli bir rahib var idi. Mövlananın böyük bir insan olduğunu eşitmişdi. Bəzi rahiblər ona Mövlanadan təriflər yağdıraraq bəhs etmişdilər. Hz. İsanı (ə.s), Hz. Musanı (ə.s) Mövlananın yazdıqlarından oxuyan bəzi rahiblər müsəlman olmuşdular. Bu rahib də



Mövlananın necə bir insan olmasına maraq göstərir və onunla görüşmək istəyirdi. Nəhayət, İstanbuldan Konyaya gedir. Konyadakı xristianlar rahibi qarşılayırlar. Ona hörmət göstərirlər. Rahib Konyalı rahiblərdən də Mövlana barəsində çox gözəl şeylər eşidir. Mövlana bütün insanlara Allah-Təalanın yaratdığı şərəfli bir varlıq olaraq baxır və onlara dəyər verirdi. Onların Allah və Rəsulunu tanımaları və doğru yolu tapmaları ən böyük arzusu idi. Rahib



qısa müddətdə Mövlananı görmək istədiyini bildirdi. Ətrafındakı rahiblərlə birgə Mövlana ilə görüşdülər. Mövlana ehtişamlı bir şəkildə ilə onların yanına gəldi. Üzü o qədər nurlu idi ki, insan diqqətlə çox çətinliklə simasına baxa bilərdi. Rahib Mövlanaya çox diqqətlə nəzər saldı. Nur üzlü Mövlananın sadəliyinə və göstərdiyi hörmətə də heyran qaldı.

Axırda dözə bilməyib belə dedi: ”Ey dinin sultanı! Mənim kimi zavallı və natəmiz birisinə qarşı göstərdiyin rəftar necə də sadəlikdir!” Bunun əvəzində Mövlana könülləri təsirləndirən aşağıdakı sözlərini dedi: “Allahın ruzi verdiyi mal ilə əliaçıqlıq edən, gözəllikdə iffətli olan, şərəflə təvazökarlıq edən, səltənətlə ədaləti tətbiq edən şəxslər necə də xoşbəxtdirlər!” deyə buyuran elə bizim sultanımız Muhəmməd Mustafadır. Elə isə Allahın bəndələrinə qarşı necə təvazökarlıq göstərməyim və nə üçün öz acizliyimi bildirməyim? Əgər bunu etməsəm, nəyə və kimə lazım olaram? Yolumuzun günəşi olan Peyğəmbər: “Nəfsini aciz görən şəxs necə də xoşbəxtdir!”-buyurmuşdur. Allaha bəndə olmaq sultan olmaqdan daha yaxşıdır, çünki “Mən ondan daha üstünəm” sözü şeytanın sözüdür. Adəmin bəndəlik etməsi ilə şeytanın təkəbbürlüyünə fikir ver, onların arasındakı fərqi gör və Adəmin bəndələyini seç!”. Rahib və ətrafındakılar Mövlananın belə gözəl söz-

ləri, əxlaqı və kamilliyi qarşısında heyran qaldılar və kəlmeyi-şəhadət gətirərək müsəlman oldular.

Mövlana baş verən hadisəyə çox sevinmişdi. Çünki bir insanın doğru yolu tapması Hz. Peyğəmbərin (s.ə.s) ifadəsi ilə dünya və içərisindəkilərə sahib olmaqdan üstündür. Mədrəsəsinə qayıtdıqda onu sevincli görən oğlu Sultan Vələd atasından nə baş verdiyini öyrəndi. Mövlana belə dedi: “Oğlum! Bu gün bir rahib bizim sadəliyimizi və təvazökarlığımızı əlimizdən almaq istədi, lakin Allaha həmd olsun, Allahın bağışladığı hidayətlə və Peyğəmbərimizin (s.ə.s) köməyi ilə təvazökarlıqda və sadəlikdə ona qalib gəldik”.



Zeynəb:

- Mövlana dedikdə ağlıma yalnız fırlanan insanlar gəlirdi. İndi isə onun necə böyük bir şəxs olduğunu daha yaxşı dərk edirəm.

Əhməd:

- Qızım, təəssüf ki, insanlar Mövlananı tam olaraq tanımırlar. O, Allaha qarşı çox yaxşı bəndəlik etmişdi. Namazlarını təkcə beş vaxt namaz olaraq qılmamış, gecələri bəzən səhərə qədər səcdələrdə qalırmış. Hətta bir gün Mövlananın oğlu atasının göz yaşlarından islanıb, soyuqdan donaraq yerə



yapışan saqqalını ılıq suyla açmışdı. Ramazan orucu ilə kifayətlənməmiş, nafilə oruclar da tutmuşdu. Qısacası hər mövzuda öndər və nümunə olmuşdu. Məsələn: azan oxunmağa başladıqda azana ayrıca hörmət göstərərmiş. Azan başlayan zaman ya ayağa qalxar, ya da dizi üstə oturub: "Ey özü ilə şənlənən canımız! Adın sonsuzadək qalsın," - deyər və azanı təkrarlayarmış. Azan qurtardıqda da azan duasını oxuyardı. Bunun ardından Peyğəmbərimizə (s.ə.s) salavat gətirərmiş. Sonra da tam sadəliklə və Allaha yalvararaq namaza başlayarmış. Xədicə xanım:

- Mənim ağlıma başqa bir əhvalatı gəldi. Bir gün hüzuruna küsülü olan iki nəfər gəlir. Mövlana onların barışmalarını istəyərək: "Bəzi insanlar su kimidir. Su kimi sadə və təvazökar, daim aşağı axarlar, həlim xarakterlidirlər. Bəziləri isə torpaq və daş kimi sərtdirlər. Su torpağa qarışar, meyvələr böyüyər, canlılar sudan qidalanar və inkişaf edər. Əgər su torpağa qarışmazsa, onda həmin torpaq və suyun faydası olmaz. Bu dostun torpaq kimi olub tərpənməz və barışmazsa, onda su kimi sadə ol, onunla razılığa gəl. İki küsülüdən hansı tez davranarsa, Cənnətə də əvvəlcə o daxil olar". Bu nəsihəti eşidən küsülülər dərhal barışırlar.

Həsən:

- Küsdükdə, bizə də belə bir məsləhət verən bir böyüyümüz olsaydı.

Zeynəb:

- Bəli, mən də çox istərdim...

Xədicə xanım sözünə belə davam etdi:

- Bir nəfər Mövlananın yanına gəlib dolanışıqdan şikayət etdi. Mövlana həmin şəxsin nankor olduğunu bilirdi. Onunla belə söhbət etdi: "Orqanlarından birini kəsib əvəzində 1000 dirhəm qızıl verək





desələr, bununla razılaşarsanmı?" O: "Xeyr!" - dedi. Həzrət Mövlana belə dedi: "Onda nə üçün dolanışıqdan şikayət edirsən? Kasıbam deyirsən. Bu qədər qızıldan daha qiymətli orqanların var ikən, bədənin sağlam ikən nə üçün bunu sənə qarşılıqsız bəxş edən Allah-Təalaya şükür etmirsən? Allah nemətlərinə qarşı şükür edənlərə verdiyi nemətləri artıracağını müjdələyir".

Əhməd dedi:



-Mən də Mövlana ilə bağlı bir əhvalat danışmaq istəyirəm. Bir gün Mövlana Şeyx Səlahəddinin dükanında oturmuşdu. Ətrafında dostları da var idi. Birdən içəri yaşlı bir kişi daxil oldu və ağlamağa başladı. O, belə dedi: “Yeddi yaşında bir uşağım itdi, onu axtardım, ancaq tapa bilmədim. Artıq ümidim kəsildi”. Mövlana ağsaqqalın başına gələn bu fəlakətin əsil səbəbini bilirdi. Onun üçün bir az hiddətlə dedi: “Necə də qəribədir. İnsanlar Allahı itiriblər, onu heç axtarmırlar. Bunun üçün sızlanmadıqları halda sənə nə olub ki, özünü az qalsın öldürürsən? Nə üçün bir anlıq da olsa Allahı axtarmır və ondan kömək istəmirsən? Əgər ondan kömək istəsən, Yaqub kimi bir zaman itmiş Yusifini taparsan”. Çarəsiz qalan yaşlı xətasını başa düşdü. Elə oradaca tövbə etdi. Göz yaşları içində Allaha dua etməyə başladı. Elə bu əsnada itən uşağın tapıldığı xəbəri yayıldı.

Zeynəb dedi:

-Mənim də yadıma müəllimimin dediyi bir hadisə düşdü. Mövlananın Əmir Arif adında azyaşlı bir nəvəsi var idi. Onu kiçik bir arabaya oturtmuşdu. Uşaq baxıcısı da onun arabasını dartırdı. Mövlana nəvəsini belə gördükdə arabanın ipini çiyninə alıb: “Arifin arabasını mən darta bilərəm,”-dedi. Bir neçə dəfə həyətdə nəvəsini gəzdirmiş, sonra da onu seyr



edənlərə tərəf dönərək: "Uşaqları sevmək şəriət padşahı və həqiqət günəşi olan Peyğəmbərimizdən (s.ə.s) biz müsəlmanlara qalan mirasdır. Peyğəmbər (s.ə.s) belə buyurmuşdur: "Uşağı olan uşaqlaşsın!". Sonra da Mövlana bu şeiri oxudu:

Atanın ağlı dünyanı ölçə bilsə də,

Kiçik uşağın başa düşməsi üçün "ti,ti" deyər.

Madam ki, işim-gücüm uşaqlardır, onda,

Uşaqların dili ilə danışmaq lazımdır.

Həsən:

- Mən də bir əhvalatını danışım?

Atası dedi:

- Əlbəttə, niyə də olmasın? Ancaq bu gün yaman çox danışdıq. Sənin



danışacağın əhvalatla söhbətimizi qurtaraq.

- Bir gün Mövlana, onu ziyarət edənlərlə söhbət edirdi. Həmin vaxt bir gəncin yaşlı bir adamdan qabaqda əyləşdiyi diqqətini çəkmişdi. Buna görə də danışdığı söhbətin mövzusunu dəyişdirərək deyir: “Bir gün Hz. Əli (r.a) sübh namazına gedərkən yolda qarşısında yəhudi bir ağsaqqal yaşlı olduğu üçün ona hörmət edərək qabağa keçməmişdi. Buna görə də o, namaza gecikmişdi. Peyğəmbər səllallahu əleyhi və səlləm birinci rükətin rükusuna əyiləndə





Hz. Cəbrayıl (ə.s) gələrək Onun mübarək kürəyinə toxunub gözləməsini işarə etdi. Beləcə, Hz. Əli (r.a) namazın ilk rükətinə çata bildi”. Mövlana bu hadisəni danışdıqdan sonra belə dedi: “Yəhudi olan bir yaşlıya hörmət göstərilərkən nəticəsi belə olursa, onda müsəlman yaşlıya daha çox hörmət edilməlidir. Üstəlik həmin yaşlı olan şəxs ömrünü İslam dinini yaşayaraq keçirmişsə, onda ona hörmət göstərən gənclərin Allah-Təala dərgahında nə qədər yüksək bir dərəcə qazanacağını düşünməliyik”. Bu nəsihətləri eşidən gənc dərsini almışdı. Həmin gündən etibarən iştirak etdiyi məclislərdə bir də bö-





yüklər tərəfdə oturmadı.

Zeynəb:

- Hə... Demək ki, böyüklərə hörmət kiçiklərin Allah-Təalanın dərgahında qədir-qiymətini artırır. Kaş bu hekayəni sinif yoldaşlarım da eşidəydilər. Onlardan bəziləri müəllimimizə qarşı lazım olan qədər hörməti göstərmirlər. Ata, mən Mövlananın məşhur nəsihətlərini qeyd dəftərimə yazmışam. Onları oxumaq istəyirəm:

Əliaçıqlıqda və kömək etməkdə axar su kimi ol!



Şəfqət və mərhəmətdə Günəş kimi ol!

Başqalarının eybini örtməkdə gecə kimi ol!

Hiddət və qəzəbdə ölü kimi ol!

Təvazökarlıq və sadəlikdə torpaq kimi ol!

Yaxşı münasibətdə dəniz kimi ol!

Hər nə olursan ol,

Ya olduğun kimi görün, ya da göründüyün kimi ol!

Əhməd:

- Oldu, uşaqlar. Söhbətimizin son nöqtəsini qoyaq. Mövlana bütün insanlara qucaq açdı. Onlara sevgini öyrətdi, onları "həqiqi sevgiliyə", yəni Uca

Allaha dəvət etdi. Yaşadığı dövrdə çox qiymətli insanlar yetişdirdi. 1273-cü ilin dekabr ayının 17-də vəfat edən Mövlana ölümü həqiqi sevgiliyə, Allaha qovuşmaq olaraq gördüyü üçün "Şəbi-arus", yəni "toy gecəsi" olaraq qəbul etdi.

- Ata, çox qəribədir. Hamımız ölümdən qorxuruq. Mövlana isə ölümə necə də adi baxır.

- Müsəlman üçün ölüm bir yoxluq deyil, başqa bir aləmə köçdür. Buna görə də bütün dünyadan insanların iştirakı ilə hər il Konyada "Şəbi-arus" tədbirləri keçirilir. Məktəblərdə də Mövlana həftəsi kimi qeyd olunur.

Mövlananın cənazə mərasimində müsəlman olan və olmayan, kiçik və böyük bütün Konyalılar iştirak etmişdilər. Müsəlmanlar başqa dindən olan insanları gördükdə təəccübləndilər. Hətta qeyri-müsəlmanların mərasimə gəlməsinə qarşı çıxanlar da olmuşdu. Bunun müqabilində Qeyri-müsəlmanlar da belə demişdilər: "Həzrət Mövlananın şəxsiyyəti insanlar üzərində parlayan və onlara yaxşılıq edən əliaçıqlıqla işıq saçan həqiqətlər günəşidir. Günəşi bütün dünya sevir. Bütün evlər onun nuru ilə işıqlanır. Mövlana çörək kimidir. Heç kim çörəyə möhtac olmadığını iddia edə bilməz. Çörəkdən imtina edən hansısa bir ac gördünüzmü? Mövlana vəfatından bir

az əvvəl dostlarını və tələbələrini toplayaraq belə vəsiyyət etmişdi:

"Gizli və açıq,

Allaha qarşı gəlməkdən çəkinib qorxun!

Az yeyib, ay yatın və az danışın!

Günahlardan çəkinin!

Çox oruc tutun!

Vaxtınızı namaz qılaraq dəyərləndirin!

Daima nəfsin pis istəklərindən çəkinin!

İnsanlardan gələn sıxıntılara səbir edin!

Cahil, nə etdiyini bilməyən, mənəvi hallardan uzaq insanlarla oturub durmayın!

Saleh, yəni yaxşı kəslərlə birlikdə olun!

Bilin ki, insanların ən xeyirlisi insanlara qarşı ən faydalı olandır!

Ya yaxşı şeylər danışın ya da

pis şeylər danışacaqsınızsa, susmağı seçin!

Sözün xeyirlisi az və öz olanıdır.

Həmd tək olan Allaha məxsusdur.

Tövhid əhlinə salam olsun".